**UOT: 31.**

**Ayşən İsmayılova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: ayshan-ismayilova@mail.ru**

# QARABAĞA QAYIDAN ŞAGİRDLƏRİN MƏKTƏBƏ UYĞUNLAŞMA DÖNƏMİ

**Xülasə:** Qarabağa böyük qayıdış hər bir azərbaycanlı üçün böyük qürur və xoşbəxtlik hissidir. Bu hissi ən dərindən yaşayanlarsa 30 il əvvəl öz doğma yurd-yuvalarından köçkün düşmüş insanlardır. Kimlər ki, uzun illər sonra əldə olunan əbədi qələbə ilə fəxrlə öz evlərinə qayıtmaq mərhələsindədirlər. Qarabağın ilk sakinləri ilə bərabər Qarabağın ilk şagirdləri də evlərinə qayıdır. Bu, məktəblilərin həyatında yeni bir mərhələ olmaqla bərabər eyni zamanda sosial-psixoloji dəyişiklik mərhələsidir. Bu, onların cəmiyyətə inteqrasiyasında ən mühüm rol oynayan məktəb həyatında daha aydın əks olunur. Bütün bu məsələlər Qarabağda tikilən məktəblərdə sosial işin əhəmiyyətini ortaya qoyur.

**Açar sözlər**: zəfər, şagird-müəllim münasibəti, qaçqın, adaptasiya prosesi, məktəb sosial işi, valideyn-uşaq münasibətləri.

Torpaqların işğaldan azad olunması ilə, azad olunmuş torpaqlarda yenidən həyatın canlanması, evlərin, məktəblərin, uşaq bağçalarının və digər ictimai əhəmiyyətli binaların inşası və əhalinin öz evlərinə qayıtmağa hazırlaşması valideynləri ilə bərabər uşaqlar üçün də yeni həyatın başlaması deməkdir. Burada isə sosial işin əhəmiyyəti ortaya çıxır. Xüsusən də, məktəblilərin Qarabağın 30 il sonra ilk şagirdləri kimi yeni məktəbə başlaması burada adaptasiya prosesi məsələsini ortaya qoyur.

1990-1993-cü illər I Qarabağ müharibəsi zamanı 1 milyona yaxın insan öz torpağından didərgin düşmüş, Azərbaycanın digər bölgələrinə sığınmışdır. Bu prosesdə uşaqlar cəmiyyətin həssas təbəqəsi olaraq xüsusilə zərər çəkmiş, yeni mühitə alışmaq məcburiyyətində qalmışlar. Bu dövrdə adaptasiya prosesi uşaqların təhsil həyatında xüsusilə qabarıq şəkildə özünü göstərmişdir. Yeni məktəbə, yeni məktəb yoldaşlarına, müəllimlərinə alışmaq bir uşaq üçün heç də göründüyü qədər asan deyil. Köçkünlüyün ilk illərində çadırlarda, vaqonlarda yaşamaq

məcburiyyətində qalan uşaqlar üçün bu ağır dönəmdən keçməklə bərabər təhsil həyatında müvəffəqiyyət qazanmaq olduqca keşməkeşli yol idi.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-a qədər davam edən 44 günlük müddət ərzində, yəni münaqişənin başlamasından atəşkəsin imzalanmasına az qalmış Azərbaycan Ordusu 290-dan çox yaşayış məntəqəsini erməni işğalından azad etdi. Azərbaycan xalqı öz müzəffər ordusuna dəstəyi və inamı, bir yumruq altında birləşərək zəfərə çatması ilə dünyada misli görünməmiş bir birlik nümayiş etdirdi.

İşğaldan azad olunmuş torpaqlarda sürətlə aparılan yenidənqurma işlərindən biri olan "Ağıllı kənd" pilot layihəsi əsasında ilk növbədə Zəngilanın işğalı səbəbi ilə bu torpaqdan köçkün düşmüş 30 ailə öz əzəli torpaqlarına geri dönür. Bu ərazidə 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası inşa edilib. Belə bir sosial layihə isə bu ailələr üçün çox böyük sosial-psixoloji dəyişiklik deməkdir ki, bu dəyişiklik də təkcə böyüklərə deyil, uşaqlara da öz növbəsində təsir göstərəcəkdir. Uşaqların tamamilə başqa yerə köçməsi, yeni təhsil həyatı, yeni dostlarla, müəllimlərlə tanışlıq, yeni mühitə uyğunlaşma prosesi bu sahədə sosial işin əhəmiyyətini ortaya qoyur. Belə halda uşaqların adaptasiya prosesində nələr özünü göstərir və nə kimi işlər görülməlidir?

Belə ki, məktəblər müxtəlif sosial-mədəni strukturlardan olan qaçqın uşaqların sosial həyata uyğunlaşmasında əsas rola malikdir. Sosiallaşma prosesində mühüm sosial institut olan məktəbin uşaq üçün yeni sahə olması məktəbə uyğunlaşma problemlərini də bərabərində gətirir. Ev mühitindən çıxıb məktəb mühitinə daxil olan uşaq müəyyən uyğunlaşma mühitindən keçir, məktəb və müəllimlərinin gözləntilərinə müsbət cavab verməyə çalışır (7). Ətrafdakı dəyişiklikləri dərk etmək, yeniliklərə uyğunlaşmaq, sosial mühitin ümumi gözləntilərinə uyğun davranışlar sərgiləmək adaptasiyaya təsir edən amillərdəndir (3; s. 72). İstənilən miqrasiya prosesində məktəblilərdə sosial-psixoloji dəyişiklik halları müşahidə olunur. Lakin bu, köçün xarakterindən asılı olaraq dəyişir. Məsələn, I Qarabağ müharibəsinin nəticələrində qeyd etdiyimiz kimi, bu köç uşaqlar üçün çox ağır proses olmaqla yanaşı, yaddaşlarında dərin və silinməz izlər buraxmışdır. Lakin misilsiz "Dəmir Yumruq" əməliyyatından sonra əldə olunan Qələbə tamamilə yeni bir mərhələdir. Bu qələbə qürur, şərəf, fəxarət hissləri doğurur. Təkcə Qarabağ sakinləri deyil, bütün dünya azərbaycanlıları Qarabağ torpağını ziyarət etməyi həyəcanla gözləyirlər. Məhz buna görə öz əzəli torpaqlarına qa-

yıdan uşaqlar üçün sosial mühitə uyğunlaşma prosesi digər hallardan daha asan olacaqdır. Belə ki, bu halda uşaq azad olunmuş torpağına həm qayıtmasının sevincini, həm də bu torpaqlarda tikilən ilk məktəbin şagirdlərindən biri olmasını yüksək qürur və fəxr hissi ilə yaşayacaq. Bu, şagirdə ətraf mühitində və yaşıdları arasında maraqla qarşılanan, diqqətlərin yönəldiyi uşaq təsirini bağışlayacaqdır. Böyük Qələbəylə azad olunmuş bu torpaqlarda təhsil almaq şagirdlərdə dərslərində daha uğurlu olması üçün ən gözəl motivasiyadır. Bütün bunlar adaptasiya prosesini yüngülləşdirən məsələlərdir. Bu prosesin müsbət tərəfləri ilə yanaşı, bəzi çətinlikləri də vardır. Belə ki, adaptasiya prosesində başlıca məsələ uşağın dostlarından, müəllimlərindən ayrılması, alışdığı evindən, ətraf-mühitindən tamamilə uzaq bir yerə köçməsidir. Bu prosesin yüngülləşdirilməsi evdə uşağın valideynlərinin, məktəbdə isə müəllimlərinin və məktəb sosial işçilərinin vəzifəsidir.

Uşaqların məktəbə uyğunlaşmasında fərdi və ətraf mühit amilləri əsas yer tutur. Bu kontekstdə ailə və məktəb mühiti ön plana çıxır. Əsas ehtiyacları ailədə qarşılanan, sevgi və güvən mühitində böyüyən, ardıcıl davranışlarla yönləndirilən və müsbət davranışları qiymətləndirilən uşaqların uyğunlaşmada daha bacarıqlı olduğu göründüyü halda, ehtiyacları ailəsi tərəfindən qarşılanmayan, rədd edilən, tez-tez cəzalandırılan, tənqid edilən və ya həddindən artıq qorunan uşaqlar məktəb mühitinə uyğunlaşmaqda çətinliklərlə üzləşir (3; s. 73). Eyni zamanda, bütövlükdə məktəb mühiti şagirdin uyğunlaşmasında çətinliklərə səbəb ola bilər. Məsələn, məktəbdə təşkilati iqlimi formalaşdıran intizam siyasətləri, sosial və idman tədbirlərinin təşkili, giriş-çıxış və tənəffüs saatlarının müəyyən edilməsi kimi bir çox idarəetmə tədbirləri şagird davamiyyətsizliyinə təsir edə bilər (1; s. 131).

Uşaqlar üçün sosial inteqrasiyanın əsasının formalaşdığı məktəb mühitində müəllimlərin mədəni məsuliyyətə malik olması, şagirdlərin mədəni köklərinə önəm verməsi və bu bilgini bir maneə kimi deyil, əksinə, öyrətmə üçün sərvət kimi görməsi və bu sərvətdən uşaqların inkişafı və öyrənməsi üçün istifadə etməsi mühüm əhəmiyyətə malikdir (9). Belə demək olar ki, əgər müəllim Qarabağa qayıdan şagirdlərlə ünsiyyət zamanı "Zəfər" məfhumunun anlamını, qələbənin nə qədər mühüm bir hadisə olduğunu uşaqlara aşılasa, dərindən mənimsətsə, Qarabağda təhsil alan uşaqların nə qədər şanslı olduqlarını onlara hiss etdirsə, uşaqlarda bu sosial dəyişiklik bir çətinlik kimi deyil, böyük bir fəxr hissi kimi

özünü büruzə verər. Əlbəttə, böyük məktəblilər bunun mənasını daha yaxşı anlayır, lakin bu hal da onların yeniyetməlik dövrünə təsadüf etdiyi üçün müəyyən narahatlıqlar özünü göstərə bilər.

Məktəbə yeni başlayan uşaqların əksəriyyəti uyğunlaşma prosesini asan keçirsə də, bəzi uşaqlar üçün məktəbə getmək daimi narahatlıq yaradır (5; s. 13). Məktəbə uyğunlaşa bilməyən uşaqlarda daha çox müşahidə olunan hərəkət məktəbdən yayınmadır. Müəllimlərin sinif daxilində müsbət münasibət və davranışları şagirdlərin məktəbə davamiyyətində müsbət təsir göstərdiyi halda, müəllimin sinif daxilində avtoritar davranışı, şagirdlərlə qarşılıqlı münasibətinin kifayətsizliyi, şagirddən istedadları üzərində performans gözləməsi kimi amillər davamiyyətsizlik kimi mənfi hallara səbəb olur (1; s. 131). Uşaqların məktəb mühitindəki rahatlıq səviyyələri, maraqları və nailiyyətləri ilə formalaşan məktəbə uyğunlaşmada həmyaşıdları da mühüm rol oynayır (4; s. 155). Məktəbə uyğunlaşa bilən uşaqlar həmyaşıdları ilə birlikdə olmaq, qrup fəaliyyətində iştirak etmək kimi bir çox müsbət qazanc əldə edir.

Məktəbə uyğunlaşma prosesində, həmçinin valideynlərin övlad tərbiyəsinə münasibəti mühüm əhəmiyyət kəsb edir. Valideynlərin həddindən artıq qoruyucu və nəzarətçi münasibət göstərdiyi və uşağın ailədən, ailənin isə uşaqdan həddindən artıq asılı olduğu hallarda uşaqların məktəbə uyğunlaşması asan olmaya bilər (2; s. 176).

Adaptasiya prosesində şagirdlərə dəstək, sosial-psixoloji problemlərinin həlli sahəsində sosial işin rolu danılmaz faktdır. Məktəb sosial işində sosial işçilərin vəzifələrini sosial tədqiqatçı Veli Duyan belə qruplaşdırır: qiymətləndirmə, proqram planlaşdırma, birbaşa xidmət, məsləhətləşmə, vəkillik, koordinasiya və əməkdaşlıq, idarəetmə. Məktəblərdə sosial işçilərin əsas vəzifəsi şagidlərin öyrənməsi və məktəbə uyğunlaşması üçün imkanlar yaratmaq və maneələri aradan qaldırmaqdır (2). Beləliklə, sosial işçi uşaqlarla iş aparan zaman ilk növbədə uşağın sosial-psixoloji vəziyyətinin analizini və qiymətləndirməsini aparır. Uşağın təhsilinə səbəb olan mövcud maneələri aradan qaldırmaq istiqamətində fərdə istiqamətlənən proqram hazırlayır. Məktəb psixoloqu, müəllimlər, ailə və lazım gəldikdə məktəb rəhbərliyi ilə məsləhətləşmələr əsasında, əməkdaşlıq çərçivəsində fəaliyyət həyata keçirir. Mələsələn, Qarabağa köçən uşaqlar üçün məktəbdə sosiallaşmanı asanlaşdırmaq, yeni mühitə alışdırmaq məqsədilə əyləncəli oyunlar, tədbirlər təşkil oluna bilər. Qələbəyə həsr olunmuş tamaşa, konsert təd-

birlərində məktəblilərin iştirakını təmin etmək də müsbət nəticə verə bilər.

Bu tədqiqatdan belə nəticəyə gəlmək olur ki, bütün hallarda köç prosesində yeni mühitə, insanlara uyğunlaşmaqda uşaqlara ailə və müəllimlərin dəstəyi olduqca əhəmiyyətlidir. İstinad etdiyim sosial iş sahəsi üzrə tədqiqatçıların araşdırmalarından əldə etdiyim nəticəyə əsasən qeyd etməliyəm ki, bu mərhələdə sosial işçilərin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin adaptasiya prosesinə dəstək və eyni zamanda akademik göstəricilərinin yüksək olmasına motivasiya şəraiti yaradacaq mühitin formalaşdırılması məqsədilə, Qarabağda yeni yaradılan məktəblərə sosial işçilərin təyin edilməsi, məktəb sosial işinin dolayı olaraq müəllimlər və məktəb rəhbərliyi tərəfindən deyil, birbaşa olaraq sosial işçilər tərəfindən həyata keçirilməsi zəruridir.

**Ədəbiyyat siyahısı:**

1. Altınkurt Y, "Öğrenci Devamsızlıklarının nedenleri ve devamsızlığın akademik başarıya olan etkisi" Dumlupınar Universiteti – Sosial Bilimler Dergisi s. 129-135 (2008)
2. Duyan V., "Sosyal hizmet temelleri, yaklaşımları, müdahele yöntemleri". Sosyal Hizmet Uzmanları Derneği, nəşr no: 16 (2010)
3. K.Karataş, N.Çalış, T.E.Gencer, A.Ege, "Okul sorunlarının okul sosyal hizmeti bağlamında değerlendirilmesi", Sosyal Hizmet Uzmanları Derneği nəşri, Sosial iş jurnalı, 2014. Səh 72-74
4. Önder A., Gülay H., "5-6 yaş çocuklarının akran ilişkileri ve sosyal konumlarının okula uyum düzeyleri üzerindeki yordayıcı etkisi". Selçuk Universitesi, Sosyal Bilimler Enstitüsü Dergisi, nəşr 30, 2013. Səh.155-158
5. Özcan Ö., Aysev A., "Okul fobisi olan çocuklarda ruhsal bozuklukların sıklığının araştırılması". İnönü Universiteti – Tıp Fakültesi Dergisi. s. 13-17
6. Rimn- Kaufman, S.E, Pianta R.C , "Patterns of family-chool contact in preschool and kindergarden". School Psychology Review. s.426-438
7. Refugee_Children_and_Adaptation_to_School_An_Analy.pdf
8. Zəngilan rayonundakı "Ağıllı kənd"də görülən son işlər - FOTO (qaziler.az)

**Айшан Исмаилова**

## ПЕРИОД ШКОЛЬНЫЙ АДАПТАЦИИ ДЛЯ УЧАЩИХСЯ, ВОЗВРАЩАЮЩИХСЯ В КАРАБАХ

**Резюме**: Великое возвращение в Карабах - это большая гордость и счастье для каждого азербайджанца. Наиболее глубоко это чувство испытывают люди, переселившиеся из родных мест 30 лет назад. Те, кто находится на стадии возвращения в свои дома с гордостью за вечную победу, достигнутую много лет спустя. Наряду с первыми жителями Карабаха, домой возвращаются и первые ученики Карабаха. Это не только новый этап в жизни школьников, но и этап социально-психологических изменений. Это более ярко отражается в школьной жизни, которая играет важнейшую роль в их интеграции в общество. Все эти вопросы раскрывают важность социальной работы в школах, строящихся в Карабахе.

**Ключевые слова**: триумф, отношения ученик-учитель, беженец, процесс адаптации, школьная социальная работа, отношения родитель-ребенок.

**Ayshan Ismailova**

## THE PERIOD OF ADAPTATION TO SCHOOL OF THE PUPILS WHO HAVE RETURNED TO KARABAKH

**Summary:** The great return to Karabakh is a great sense of pride and happiness for every Azerbaijani who are proud of return home with eternal victory achieved many years later. Along with the first residents of Karabakh, the first pupils of Karabakh have also returned to their home. This is a new stage in the life of pupils, as well as a stage of socio-psychological change. This is more clearly reflected in school life which plays the most important role in their integration into society. All these issues highlight the importance of social work in schools that being built in Karabakh.

**Key words:** victory, pupil-teacher relations, refugee, adaptation process, school-social work, parent-child relations.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02. 01. 2022**

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05. 01. 2022**

**Məqalənin çapa qəbul olunma tarixi: 11. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**müəllim Ülkər Rzayeva**